Tədbirdə Təhsil Nazirliyinin əməkdaşları, ali təhsil müəssisələrinin mətbuat əlaqələndiriciləri, media qurumlarının rəhbərləri, jurnalistlər iştirak ediblər.

Konfrans 2 panelə bölünüb. "Təhsildə media təfsilatı" mövzusunda keçirilən birinci panel Bakı Dövlət Universitetində baş tutub. Burada Təhsil Nazirliyinin QHT və KİV-lə iş sektorunun müdiri Cəsarət Valehov və informasiya texnologiyaları üzrə mütəxəssis Mehman Şəfaqətov "Təhsil Nazirliyinin media ilə əməkdaşlıq təcrübəsi" mövzusunda təqdimatla çıxış ediblər. Bakı Dövlət Universitetinin kafedra müdiri Aynur Kərimovanın "Krizis kommunikasiyada media" mövzusunda məruzəsi də iştirakçılarda böyük maraq doğurub. Birinci panel müzakirələrdən sonra başa çatıb.

Konfransın ikinci paneli Azərbaycan Dövlət İqtisad Universitetində keçirilib. Burada "APA Holdinq" MMC-nin prezidenti Vüsalə Mahirqızı "Sosial mediada təhsil mövzusu" adlı məruzə ilə çıxış edib. Tədbir "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüzün "Sosial mediada PR texnologiyaları" və Bakı Dövlət Universitetinin professoru Şahlar Əsgərovun "Mediada qeyri-peşəkarlıq problemi" mövzularında məruzələri ilə davam etdirilib. Qeyd olunan mövzular üzrə müzakirələrə qoşulan Respublika Təhsil Şurasının sədri Əjdər Ağayev, təhsil eksperti Etibar Əliyev konfransın böyük önəm daşıdığını, təhsil qurumları ilə media arasında əməkdaşlığın inkişafına təkan verəcəyinə əminliklərini vurğulayıblar.

Konfrans "Media və təhsil dialoqu" mövzusunda müzakirələrlə başa çatıb.